**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

**"Təsdiq edirəm"**
**Tədrisin təşkili və təlim texnologiyaları**
**üzrə prorektor v.i.e.____________dos.Z.Məmmədov**
**"20" 05 __________2025-ci il**

# Fənn sillabusu

**Fakültə:** Təbiyyat
**Kafedra:**"Fizika, kimya və biologiya"
**İxtisas:** 050504 – Ekologiya
**I. Fənn haqqında məlumat:**
**Fənnin adı:** Coğrafi ekologiya
**Fənnin kodu:** İF-B08
**Fənn proqramı:** Proqram "Biologiya və ekologiya" kafedrasının 27.05.2024-cü il tarixli **(Protokol №10)** iclasında müzakirə olunub məqsədəuyğun hesab edilmişdir.
**Tədris ili:** II (2025-2026), Semestr: III
**Tədris yükün cəmi:** 40 saat: Auditoriya saatı: 14 (8 saat mühazirə, 6 saat seminar)
**Tədris forması:** Qiyabi
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 4 kredit
**II. Müəllim haqqında məlumat:**
**Adı, soyadı, elmi dərəcəsi və elmi adı:** Günay Məmmədova, müəllim
**Məsləhət günləri və saatı:** III gün, saat $13^{00}$; IV gün, saat $13^{00}$
**E-mail ünvanı:** **gunu.mamedova.91@mail.ru;**
**Kafedranın ünvanı:** Lənkəran ş., H.Z.Tağıyev
**III.Tövsiyyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**
**1. Zəruri ədəbiyyatlar:**
1.Fərhad Əliyev, Leyla Rəhimova.,"Azərbaycanın Ekoloji Problemləri" Bakı 2016, 240s
2. Şahlar Vəliyev. "Azərbaycanın Coğrafiyası və Ekologiyası" Bakı 2018,320s
3. Rövşən Quliyev, "İqlim Dəyişikliyinin müxtəlif regionlarındakı ekosistemlərə təsiri. Bakı 2020, 150s
4. VA Tsyganov, TV Shvidenko,"Экологическая География Россия.(Ekoloji Coğrafiya: Rusiya), Moskva 2016, 380s
5. SP Sukachev,Ekologiya və İqlim Dəyişiklikləri Rusiyya,. Moskva 2019, 420s
6. AS İvanov , İqlim Dəyişikliyi Şəraitində Ekoloji İdarəetmə, Moxlva 2017 , 280s
**IV. Fənnin təsviri və məqsədi:**
Coğrafi ekologiya kursu "Ekologiya" istiqaməti üzrə mütəxəssislərin hazırlanmasında tədris olunan fənlərdən biridir. Coğrafi ekologiya təbiət-əhali-istehsal sistemlərinin daxili və sistemlərarası əlaqələrindən, onların ərazi birliklərindən bəhs edir. Başqa ekoloji fənlərdən fərqli olaraq coğrafi ekologiya çox mürəkkəb sistemləri və prosesləri əhatə edir. Təsadüfi deyildir ki, tədqiqat obyektinin və problemlərinin mürəkkəbliyinə görə onu fəlsəfə elmi ilə müqayisə edirlər. Nəzərə almaq lazımdır ki, coğrafi ekologiya ətraf mühitin strukturlarından, onlar arasındakı qarşılıqlı əlaqələrin qanunauyğunluqlarından və ziddiyyətlərindən bəhs etdiyinə görə həmin elm



CamScanner ilə skan edilib

sahəsi maddi aləm haqqında bilikləri zənginləşdirir. Məhz həmin cəhətinə görə coğrafi ekologiya vasitəsi ilə fəlsəfi anlayışlara və dünyagörüşlərə xeyli aydınlıq gətirilir. Predmetinin zənginliyinə, problemlərin əhatə dairəsinə görə coğrafi ekologiyanı bəzi ədəbiyyatlarda qlobal ekologiya da adlandırırlar.

**V. Perekvizitlər:** Fənnin tədrisi üçün öncədən hər hansı fənnin tədrisi vacib deyildir.

**VI. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxtda digər ekoloji fənlərin də tədris olunması əhəmiyyətlidir.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:** Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və laboratoriya dərslərində fəaliyyətinə, 30 bal kollokviumların nəticələrinə görə. Əgər fənn üzrə həm seminar və həmdə laboratoriya varsa onda 10 bal seminara, 10 bal isə laboratoriyaya görə verilir.

Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir.

Qiymət meyarları aşağıdakılardır:

*-10 bal- tələbə keçilmiş material dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.*

*-9 bal-tələbə keçilmiş material tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.*

*-8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;*

*-7 bal- tələbə keçilmiş material başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir*

*-6 bal- tələbənin cavabı əsasən düzgündür.*

*-5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.*

*-4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;*

*- 3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;*

*- 1-2 bal- tələbənin mövzudan qismən xəbəri var.*

*-0 bal- suala cavab yoxdur.*

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.

**Semestr nəticəsinə görə yekun qiymətləndirmə imtahan və imtahanaqədərki ballar əsasında:**

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | əla | A |
| 2. | 81-90 | çox yaxşı | B |
| 3. | 71-80 | yaxşı | C |
| 4. | 61-70 | kafi | D |
| 5. | 51-60 | qənaətbəxş | E |
| 6. | 0-50 | qeyri-kafi | F |



CamScanner ilə skan edilib

**IX. Davranış qaydalarının pozulması:** Tələbə universitetin daxili nizam – intizam qaydalarını pozduqda onun haqqında əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.

**X. Təqvim mövzu planı: Mühazirə 8 saat, seminar 6 saat. Cəmi 14 saat**

**1. Mühazirə məşğələsi.**

| № | Keçirilən mühazirə mövzuları | Saat | Tarix |
|---|---|---|---|
| 1 | **Mövzu1:** Ekoloji anlayışlar, ekoloji biliklərin yaranma mərhələləri.<br>**Plan:**<br>1.1. Ekologiya və coğrafi ekologiyanın predmeti, ekoloji anlayışların yaranma mərhələləri.<br>1.2. Eramızdan əvvəl ibtidai həyat tərzi haqqında məhdud biliklərin yaranması.<br>1.3. Antik və ilkin feodal dövlətlərində ərazi əmək bölgülərindən istifadə edilməsi ilə ətraf mühit haqqında biliklərin yaranması.<br>1.4. Qədim Şərqdə və eləcə də Azərbaycanda ekologiya və ətraf mühiti mühafizə sahəsindəki elmi və praktiki nailiyyətlər.<br>1.5. Təbii ehtiyatlardan intensiv istifadə və manufaktura sənayesinin inkişafı dövrü.<br>1.6. Canlı aləmin ətraf mühitdən asılılığının tədqiqi, təkamül təlimi və ekologiya haqqında biliklərin yaranması dövrü.<br>**Mənbə:** 1, 2, 3 və s. | 2 | |
| 2 | **Mövzu2:** Coğrafi təbəqənin bütövlüyü, torpaqların biosferdə yeri və kontrastlığının ekoloji xüsusiyyətləri.<br>**Plan:**<br>2.1. Coğrafi təbəqə və onun ekoloji xüsusiyyətləri.<br>2.2. Coğrafi təbəqənin bütövlüyü və kontrastlığının ekoloji proseslərə təsiri.<br>2.3. Coğrafi təbəqədə maddələr və enerji mübadiləsinin ekoloji xüsusiyyətləri.<br>2.4. Coğrafi təbəqədə ritmik və fasiləsiz inkişafın ekoloji nəticələri.<br>2.5. Torpaqların özünəməxsus xüsusiyyətləri.<br>2.6. Yer kürəsində torpaqların yayılma qanunauyğunluğu və ekoloji xüsusiyyətləri.<br>2.7. Torpaqların biosferdə yeri.<br>**Mənbə:** 1, 2, 3 və s. | 2 | |
| 3 | **Mövzu3:** Biosfer , suların əhəmiyyəti və ekoloji xüsusiyyətləri<br>**Plan:**<br>1. Biosfer haqqında ümumi məlumat,biosferin təkamülləşməsi və ekoloji prosesləri.<br>2. Biosferin strukturu və funksiyası.<br>3. Kosmos – Yer əlaqələrinin biosferə təsiri və ekoloji nəticələri.<br>4. Canlı maddələrin kosmoplanetar təkamülləşmədə yeri.<br>5. Hidrosferin əmələ gəlməsi, ətraf mühitin və ekoloji proseslərin nizamlanmasında yeri. | 2 | |



CamScanner ilə skan edilib

| | | | |
|---|---|---|---|
| | 6. Suların həyati əhəmiyyəti və xassələri.<br>7. Hidrosfer və atmosfer kütlələrinin qarşılıqlı təsiri haqqında<br>8. Suların yayılması və istifadə edilməsi,Suların qlobal xassələri.<br>**Mənbə:** 1, 2, 3 və s. | | |
| 4 | **Mövzu4:** Noosfera – texnosferanın ekoloji problemləri, təbiət və cəmiyyət münasibətlərinin ətraf mühitin mühafizəsində yeri.<br>**Plan:**<br>5.1. Noosfera haqqında məlumat.<br>5.2. Noosferanın formalaşmasında canlı və cansız aləmin yeri.<br>5.3. Müasir dövrdə noosferə münasibət.<br>5.4. Noosferanın tədqiqində ölkələrarası təşkilatların rolu.<br>5.5. Tarazlı inkişaf haqqında ümumi məlumat.<br>5.6. Təbiət elmlərində tarazlıq məsələləri.<br>5.7. Tarazlı inkişafın coğrafiya elmində yeri və mühafizə məsələləri.<br>**Mənbə:** 1, 2, 3 və s. | 2 | |
| | **Yekun** | 8 | |

**2.Seminar məşğələsi**

| № | Keçirilən seminar mövzuları | Saat | Tarix |
|---|---|---|---|
| 1 | **Mövzu1:** Ekoloji anlayışlar, ekoloji biliklərin yaranma mərhələləri, Coğrafi təbəqənin bütövlüyü, torpaqların biosferdə yeri və kontrastlığının ekoloji xüsusiyyətləri.<br>**Plan:**<br>1.1. Ekologiya və coğrafi ekologiyanın predmeti, ekoloji anlayışların yaranma mərhələləri.<br>1.2. Antik və ilkin feodal dövlətlərində ərazi əmək bölgülərindən istifadə edilməsi ilə ətraf mühit haqqında biliklərin yaranması.<br>1.3. Təbii ehtiyatlardan intensiv istifadə və manufaktura sənayesinin inkişafı dövrü.<br>1.4. Coğrafi təbəqə və onun ekoloji xüsusiyyətləri.<br>1.5. Coğrafi təbəqənin bütövlüyü və kontrastlığının ekoloji proseslərə təsiri.<br>1.6. Coğrafi təbəqədə maddələr və enerji mübadiləsinin ekoloji xüsusiyyətləri.<br>1.7. Coğrafi təbəqədə ritmik və fasiləsiz inkişafın ekoloji nəticələri.<br>1.8. Torpaqların özünəməxsus xüsusiyyətləri, Torpaqların biosferdə yeri.<br>1.9.Yer kürəsində torpaqların yayılma qanunauyğunluğu və ekoloji xüsusiyyətləri.<br>**Mənbə:** 1, 2, 3 və s. | 2 | |



CamScanner ilə skan edilib

| | | | |
|---|---|---|---|
| 2 | **Mövzu2:** Biosfer , suların əhəmiyyəti və ekoloji xüsusiyyətləri<br>**Plan:**<br>1. Biosfer haqqında ümumi məlumat,biosferin təkamülləşməsi və ekoloji prosesləri.<br>2. Biosferin strukturu və funksiyası.<br>3. Kosmos – Yer əlaqələrinin biosferə təsiri və ekoloji nəticələri.<br>4. Canlı maddələrin kosmoplanetar təkamülləşmədə yeri.<br>5. Hidrosferin əmələ gəlməsi, ətraf mühitin və ekoloji proseslərin nizamlanmasında yeri.<br>6. Suların həyati əhəmiyyəti və xassələri.<br>7. Hidrosfer və atmosfer kütlələrinin qarşılıqlı təsiri haqqında<br>8. Suların yayılması və istifadə edilməsi,Suların qlobal xassələri.<br>**Mənbə:** 1, 2, 3 və s. | 2 | |
| 3 | **Mövzu3:** Noosfera – texnosferanın ekoloji problemləri, təbiət və cəmiyyət münasibətlərinin ətraf mühitin mühafizəsində yeri.<br>**Plan:**<br>3.1. Noosfera haqqında məlumat.<br>3.2. Noosferanın formalaşmasında canlı və cansız aləmin yeri.<br>3.3. Müasir dövrdə noosferə münasibət.<br>3.4. Noosferanın tədqiqində ölkələrarası təşkilatların rolu.<br>3.5. Tarazlı inkişaf haqqında ümumi məlumat.<br>3.6. Təbiət elmlərində tarazlıq məsələləri.<br>3.7. Tarazlı inkişafın coğrafiya elmində yeri və mühafizə məsələləri.<br>**Mənbə:** 1, 2, 3 və s. | 2 | |
| | **Yekun** | 6 | |

**XI. Fənn üzrə tələblər, tapşırıqlar:**

Kursu tədris etdikdən sonra tələbələr coğrafi ekologiyanın predmeti, ekoloji anlayışların yaranma mərhələləri, ətraf mühit haqqında biliklərin yaranması, canlı aləmin ətraf mühitdən asılılığının tədqiqi, təkamül təlimi və ekologiya haqqında biliklərin yaranması dövrünün əsas istiqamətləri barəsində elmi-nəzəri və praktiki məlumatlara yiyələnməlidirlər.

**XII. Fənn üzrə təlimin nəticələri:**

Kursun tədrisi başa çatdıqdan sonra tələbələr coğrafi ekologiyanın əsas istiqamətləri, onun xüsusiyyətləri, bütövlüyü və kontrastlığının ekoloj mahiyyətini öyrənəcələr. Torpaqların özünəməxsus xüsusiyyətləri, biosferdə yeri, yayılma qanunauyğunluğu və ekoloji xüsusiyyətləri və hidrosferin əmələ gəlməsi, ətraf mühitin və ekoloji proseslərin nizamlanmasında yerinin əsas prinsiplərinin mahiyyətini öyrənəcəklər.

**XIII. Tələbələrin fənn haqqında fikrlərinin öyrənilməsi:**

______________________________________________

______________________________________________

______________________________________________



CamScanner ilə skan edilib

**XIV: Kollekvium sualları:**

1. Coğrafi ekologiyanın predmeti, ekoloji anlayışların yaranma mərhələləri.
2. Eramızdan əvvəl, antik və ilkin feodal dövlətlərində ibtidai həyat tərzi və ətraf mühit haqqında biliklərin yaranması
3. Təbii ehtiyatlardan intensiv istifadə, canlı aləmin ətraf mühitdən asılılığının tədqiqi, təkamül təlimi və ekologiya haqqında biliklərin yaranması dövrü.
4. Qədim Şərqdə, Azərbaycanda ekologiya-ətraf mühiti mühafizə sahəsindəki elmi və praktiki nailiyyətlər.
5. Coğrafi təbəqə, onun ekoloji xüsusiyyətləri, bütövlüyü və kontrastlığının ekoloji proseslərə təsiri.
6. Coğrafi təbəqənin bütövlüyü, maddələr və enerji mübadiləsinin ekoloji xüsusiyyətləri.
7. Yer kürəsində torpaqların özünəməxsus xüsusiyyətləri, biosferdə yeri, yayılma qanunauyğunluğu və ekoloji xüsusiyyətləri.
8. Hidrosferin əmələ gəlməsi, ətraf mühitin və ekoloji proseslərin nizamlanmasında yeri.
9. Suların həyati əhəmiyyəti və xassələri.
10. Suların yayılması, qlobal xassələri və istifadə edilməsi.

**XV. Coğrafi ekologiya fənnindən imtahan sualları:**

1. Ekologiya və coğrafi ekologiyanın predmeti, ekoloji anlayışların yaranma mərhələləri.
2. Eramızdan əvvəl ibtidai həyat tərzi haqqında məhdud biliklərin yaranması.
3. Təbii ehtiyatlardan intensiv istifadə və manufaktura sənayesinin inkişafı dövrü.
4. Coğrafi təbəqə və onun ekoloji xüsusiyyətləri.
5. Coğrafi təbəqənin bütövlüyü və kontrastlığının ekoloji proseslərə təsiri.
6. Coğrafi təbəqədə maddələr və enerji mübadiləsinin ekoloji xüsusiyyətləri.
7. Coğrafi təbəqədə ritmik və fasiləsiz inkişafın ekoloji nəticələri.
8. Torpaqların özünəməxsus xüsusiyyətləri.
9. Yer kürəsində torpaqların yayılma qanunauyğunluğu və ekoloji xüsusiyyətləri.
10. Torpaqların biosferdə yeri.
11. Suların həyati əhəmiyyəti və xassələri.
12. Hidrosferin əmələ gəlməsi, Ətraf mühitin və ekoloji proseslərin nizamlanmasında yeri.
13. Hidrosfer və atmosfer kütlələrinin qarşılıqlı təsiri haqqında.
14. Suların yayılması və istifadə edilməsi.
15. Suların qlobal xassələri.
16. Biosfer , suların əhəmiyyəti və ekoloji xüsusiyyətləri
17. Biosfer haqqında ümumi məlumat.
18. Biosferin təkamülləşməsi və ekoloji prosesləri.
19. Biosferin strukturu və funksiyası.
20. Kosmos – Yer əlaqələrinin biosferə təsiri və ekoloji nəticələri.
21. Canlı maddələrin kosmoplanetar təkamülləşmədə yeri.
22. Noosfera – texnosferanın ekoloji problemləri, təbiət və cəmiyyət münasibətlərinin ətraf mühitin mühafizəsində yeri.
23. Noosfera haqqında məlumat.
24. Noosferanın formalaşmasında canlı və cansız aləmin yeri.



CamScanner ilə skan edilib

25. Müasir dövrdə noosferə münasibət.
26. Noosferanın tədqiqində ölkələrarası təşkilatların rolu.
27. Tarazlı inkişaf haqqında ümumi məlumat.
28. Təbiət elmlərində tarazlıq məsələləri.
29. Tarazlı inkişafın coğrafiya elmində yeri.
30. Tarazlı inkişafın mühafizə məsələləri.

Coğrafi ekologiya fənninin sillabusu "Fizika, kimya və biologiya" kafedrasının 15.05.2025-cü il tarixli iclasında müzakirə edilərək təsdiq olunmuşdur. (Protokol №10).

**Fənn müəllimi:** **m.G.Q.Məmmədova**

**Kafedra müdiri:** **b.e.n., dos. R.Şəmmədov.**



CamScanner ilə skan edilib